# GƏL GEDƏK YURDA SARI

## *bayatı-poema*



*Əli Rza XƏLƏFLİ*

### *IV hissə*

Mənim bu yazımın, sözümün istər essevari düşüncələrdən keçən motivi, istərsə də, bayatı misralarına bürünmüş ovqatı mən istəsəm də, istəməsəm də yovşan qoxusu ilə süslənir.

Yovşan qoxusunda isə bir ayrılıq, bir dərd çaları var.

Cəbrayılın görkəzmə təbiəti vardı. Elm, ədəbiyyat... ayağı yer tutub qalxanın ruhunda çiçəkləyirdi. Eləcə də, səs Cəbrayıl kəhrizlərinin duruluğu kimi cəbrayıllı xanəndələrin ruhundan çağlayırdı. Varislik itməyib, varislik yaşayır. Ustad Zahid Quliyev, indi ölkəcən məşhur olan İlkin Əhmədov, səsi, sənəti ilə tanınan Vüsal Zamanov, istedadlı el sənətkarları Məhəmməd Abdullaoğlu, Məhəbbət Gəyənli, Novruz Cəfərzadə, Nazim Fərzalıoğlu... kimi gənclər səsləri ilə, sənətləri ilə Qarabağ ruhunun keşiyindədirlər. Bu səsin – Qarabağ səsinin, bu səsin Cəbrayıl ladının kökü, damlası mirvari dənələri kimi parlayan Cəbrayıl kəhrizləridir. Cəbrayıl dağlarından – Teydən, Güzgədağdan, Diridən, Gordubabadan, Xələf dağından, Tumas vadilərindən, bir sözlə, Cəbrayıl həndəvərindən süzülüb gələn bulaqlardır.

...Axı yurda dönəsi yolumuz çox uzandı. Neçə dədələr, neçə nənələr ümidlə gözlərini yollara dikdilər. Yolların ağı qarala qaldı. Gözlərin qarası ağara qaldı. Amma bütün hallarda yovşan qoxusu məni çəkib o uzaq illərə apardı. Az qala bir qərinənin o biri başına.

Bu o zaman idi ki, Şamilin səsi Gəyən çölündə at kimi kişnəyirdi. Gordu Babanın arxasında (Kora dərə Yarəhmədlisində), deyəsən, Şıxlı kəndində ilk baxışdan deyərdin ki, səsi, musiqini eyninə almayan Şıxlı Xasay Şamilin dəvət olunduğu toyda özünü elektrik avadanlıqlarının üstünə yıxır: "Şamil, canın üçün qoymaram, gərək bu toyda canlı oxuyasan". Ona izah edirlər ki, əlbəttə, canlı oxuyacaq. Ancaq o deyir, bilirəm, gərək "tok"dan istifadə olunmasın. Yəqin ki, Şıxlı Xasay kişi, elə yarəhmədlilərin hamısı elektrik vasitəsiylə gücləndiricini nəzərdə tuturdular.

Şamil özünə güvənclə yaxşı deyir. Amma iş bununla bitmir. "Bilirsən nə oxuyacaqsan?" – soruşurlar. Şamil cavab verir ki, nə istəsəniz oxuyaram.

Toya gələn ansambl elə bu yerdən, yəni Yarəhmədlidən olan musiqiçilər olub. Ustad Xurşud və onun yetirmələri. Şamil öz söhbətində danışır ki, Xurşud mənə göz basdı. Mən də başa düşdüm. Xurşud deyirdi ki, əşi, yola ver.

Bu yerdə gərək Xurşudun da biriki cümlə ilə haqqını verək. Xalq sənətkarları arasında ən yüksək hörmətə, ehtirama və rəğbətə layiq sənətkar idi. Bizim tərəflərdə - Qarabağda adısanı vardı. Xalq çalğı aləti zurnanın musiqi abidəsi kimi yaşadılmasında əvəzsiz xidmətlər göstərmişdi. Bu o Xurşud idi ki, qara zurnanı Xələflidə - Şirvan bulağının başında, Zal Əziz oğlunun qapısında zilə çəkəndə səsi bütün vadini başına götürürdü. Qaytaran oğlu Rizvan "ayə, nənəm qurban, ay Xurşud, toy elə sənin qara zurnanın səsidir" deyib qara zurnanın səsinə elə öz qapısında oynayırdı.

Əmi oğlu Əliqəmənin toyunu Xurşudun dəstəsi çalırdı. Xurşudun qara zurnasında səslənən "Çoban-Bayatı"nı eşidən hər kəs yerində donub qalırdı. Bir sözlə, Xurşud belə Xurşud idi.

Şamil deyir ki, o vaxt Kremldəki məşhur konsertimizdə ayrıca zurnaçılar dəstəsi çıxış edirdi. Bəlkə o dəstədə çoxu Xurşuddan da ustad idi. Amma salondakıların, xüsusilə türksoylu qonaqların hamısının gözü Xurşudda idi. Xurşudun çalğısı insanların sümüyünə işləyirdi.

Qayıdıram bir də Xurşudgilin kəndinə, obasına. Təkcə elə Xurşuda görə bu kənddən neçələri həyatını səsə, musiqiyə bağlamışdı. Şamil də Yarəhmədlidə, Şıxlıda Xurşudla birgə çox toylarda olmuşdu. Toylardan birindən kiçik bir yaddaş çözümü.

Dəstə qapıya təzə çatıb. Musiqiçilər alətləri yerbəyer etmək istəyir.

Axır ki, söz məqama çatır. Neçə muğamın adı çəkilir. Yarəhmədlinin hörmətli kişilərindən biri qabağa yeriyib deyir ki, a bala, sən aşıq Surxayın bacısı oğlusansa, gərək "Zabul-Segah" oxuyasan.

İndi buradan gerisini Şamil deyir; dedim ay dədə, dara düşdüm, köməyimə gəl. "Tok"suz, "usilitel"siz gəl bu mağarı "Zabul-Segah"ın səsiylə doldur. Bizlərdə dədə harayı Allaha, tanrıya üz tutmaq kimi bir istəkdir. Qədim türklərdə belə bir adət olub. Dara düşəndə uluların ruhunu çağırarmışlar.

Şamil sözünə davam edir: Başladım "Zabul-Segah"ı. Əvvəli pəsdənpəsdir. Amma bir az keçmiş uşaqlı-böyüklü mağardan bir səs gəlmirdi, elə bil ki, hamının ünü batmışdı. Xanəndəyə də nə lazımdır? Özümü ala buluddakı kimi görürdüm. Səsim muğamın guşələrini, hissələrini dəyişdikcə göy üzündə buludlar toqquşan kimi əks-səda verirdi, elə bilirdim mən oxumuram, oxuyan Gordu Babadır, Dağdağan Piridir, ən başlıcası, Cəbrayıl Atadır.

Şamil parlaq ulduz altında, bəxtli ulduz altında doğulub. Əgər bu hökmümüz düz olmasaydı, onda Şamil çoxdan itib-batmışdı. Xalq artisti Əliağa Quliyev ondan tələb edəndə ki, gəl gedək sənin "Çahargah"ını yazdırım, qoy Sabir də görsün ki, başqa "Çahargah" oxuyan da var. Sabir Mirzəyev Cəbrayıla qostrola gəlmişdi. Mən də rayon qəzetinin tələbinə əsasən onun repertuarı haqqında xəbər yazmalı idim. İçəri girəndə gördüm ki, Sabir çarpayısında oturub. Bir tərəfində Şamil, o biri tərəfində də qardaşı Qabil. Salam verib bir tərəfdə də mən oturdum. Sabir Mirzəyev zamanına görə, elə həm də bütün zamanlara görə böyük sənətkar idi. Əlbəttə, onun hüzurunda sərbəst olmaq da çətin idi. Amma Şamillə dialoqda hansısa bir muğamın guşələrini səslə göstərməyi tələb edirdi. Mən iki səsin, iki bənzərsiz bülbülün dinləyicisi idim. Tarsız, kamançasız, dəfsiz ayrı-ayrı muğam parçaları oxunurdu. Birdən-birə dayanıb tamam başqa bir hissəyə keçirdilər.

İndiki kimi yadımdadır. Sabir o vaxtkı balaca cüssəsi ilə yerindən tullanıb Şamili qucaqladı. Şamil də ayağa qalxdı. "Qardaş, sənə heç bir dərs lazım deyil", - dedi.

Şamil keçmişdən danışanda, həyatının görünən-görünməyən tərəllatinə ün salanda yadına düşəni şirin nağıl kimi danışır. Əfsanə kimi çözür. Rəvayət kimi sözü yatımına çəkir: Mən sənətə Süleyman Abdullayevin səsi ilə gəlmişəm. Süleyman özü də teztez deyir ki, bəlkə Şamil traktorçu da, kosmonavt da ola bilərdi. Amma sənət yoluna gəldi. Bəli, Şamil həqiqətən etiraf edir: Məni sənətə Süleymanın səsi gətirdi. Səs Şamili Qarabağ həsrətinin uçurumundan dartıb çıxardıb. Onu həsrət göllərində batmağa qoymadı. Azərbaycanın görkəmli ziyalılarının əhatəsinə düşdü. Əlbəttə, xanəndənin həyatı o vaxt güllənir ki, səsin, sənətin qədrini bilən insanların arasında olur. Bu məqamı xalq şairi Ramiz Rövşən daha dəqiq ifadə edir:

"Şamilsiz bizim məclislərimiz ağqara televiziya verilişləri kimi olardı. Şamil bizim məclislərimizə rəng qatıb, özü də təkrarsız rənglər".

Zaman sürətlə keçdi. Nağıllarda qırx ilin sonu səhərin açılmağı kimi yozulur.

Elə mən də qırx ilin sonunu ruhumuza, varlığımıza düşən işıq kimi yozuram. Bu Sabirdən Cəbrayılda ayrılmağın qırx ilidir. Amma Cəbrayıldan ayrılmağın az qala, qərinəsidir.

Qərinələr sonsuzluq, hədsizlik anlamında başa düşülür. Baxmayaraq ki, zaman ölçüsü 33 ildir.

Cəbrayıldan ayrılmağımızın zamanı bir qərinə deyil. Amma tariximizə güllə yağışı yağmasının zamanı az qala qərinəni ötməkdədir.

Deyəsən, hələ yazının əvvəllində demişdim. Şamil deyirdi ki, mən Cəbrayıla qayıdanda səsimi kəhriz üstündə, bulaq başında, qaya dibində, toylarını elədiyim oğulların nəvələrinin toyunda axtaracam.

Şamil maraqlı adamdır, özünəxas cazibəsi var. Rafiq Əliyevin, Ramiz Rövşənin, Qulu Məhərrəmlinin, Rəşad Məcidin... məclislərində hörmət izzət sahibidir. Ağlıma belə bir fikir gəlir. Bəzən kimin kim olduğunu onu tanıyandan soruşmaq daha düzgün olardı.

Şamili həm sənətkar kimi, həm bədii qiraət ustası kimi, poeziya vurğunu kimi, ən başlıcası, hallı-təbli dost kimi elə onun dostlarından soruşmaq gərəkdir.

Şamil belə sənətkardır. Səsinin 7 rəngi var. İnanmayanlar özünə zəhmət versin, Şamilin lent yazılarını heç olmasa, bircə dəfə dinləsin.

Sosial şəbəkənin ehtiyat bazasında Şamilin çoxlu lent yazıları var. Gəncliyindən tutmuş üzü bəri texniki yaddaşın qoruyub saxladığı bu bənzərsiz nəğmələr, muğam parçaları Şamilin sənət yolundakı boy artımına kifayət qədər aydın bələdçilik edir. Şamil təkcə özünün bəstələdiyi nəğmələri özü ifa etmir. Bir çox məşhur müğənnilər onun "Sarı bülbül – Xarı bülbül", "Yuxum çin olmaz-çin olmaz" kimi nəğmələri çoxlu şirin səsli müğənnilərin dilindən insanları yenə də öz cazibəsinə çəkməkdədir.

Yer-göy birləşsə də, Şamilin səsinin itəcəyinə inanmıram. Hansı nəvəsi iləsə, hansı nəticəsi iləsə, lap elə yeddi arxa dönəmindən sonra olsa da, o səs bir də ruhumuza varlığımıza qayıdacaq: Azərbaycan göyündə, Qarabağda, Gəyəndə, Araz üstündə, Xudafərində dalğa-dalğa ruhumuza, varlığımıza hopacaq.

Musiqi elitasının yaxşı tanıdığı, Azərbaycan mənəvi mühitinin sevgisini qazanmış Şamillə - xanəndə Şamil Əhmədli ilə yurda xəyali səfərim qurtarır.

Ruhumun söz çiçəkləri qəlbimin yanğısına beləcə şeh çilədi.

Yovşan qoxusu sənsən,
Qayıdasan, dönəsən;
Ha gəzəm, ha dolanam,
A Gəyən, pirim sənsən.

Çölümüz mərd çölüdür,
Qəlbimiz dərd çölüdür;
Səsinlə söylə, Şamil,
Gəyən bozqurd çölüdür.

Dost bağrı sökük qalmaz,
Xaraba çökük qalmaz;
Dağılan Qarabağda,
Yığılar, tökük qalmaz.

Eşqinin havası var,
Dərdinin davası var;
Ay Şamil, istəyin də,
Qalmışı, savası var.

Körpəni beşik çəkir,
Ev çəkir, eşik çəkir;
Ceyhunum Kəlbəcərdə,
Səngərdə keşik çəkir.

Yol üstə qumru gəzər,
Qəmərli, Gümrü gəzər;
Baş qaldıran yağının,
Başını yumruq əzər.

Şamilin qəm evi var,
Qəmində dəm evi var;
Yaş ötdü, ömür keçdi,
Yurdunda kəm evi var.

Könlüm günümü öyməz,
Həsrət qəddimi əyməz;
Qürbətin sarayı da,
Xaraba yurda dəyməz.

Aşığa eşqi yoldu,
Sevdası açıq qoldu;
Səsin Gəyən yeridi,
Gəldi, ruhuma doldu.

Şamil, ömür sovrulur,
Ovum-ovum ovrulur;
Hər şəhid tabutunda,
Ruhum yanıb qovrulur.

Dağlarda tul olarsan,
Ocaqda kül olarsan;
Könlündə istək olsa,
Səhrada gül olarsan.

Gəyəndə güzü gördük,
Lələsiz düzü gördük;
Açıldı səhərimiz,
Şamil, gündüzü gördük.

*(Davamı 9-cu səhifədə)*

*(Əvvəli 8-ci səhifədə)*

Dağların çəni getdi,
Çiskini, çəni getdi;
Müəllim İlqar dostum,
Yandırdı məni, getdi.

Gözlərimdə çən gəzir,
Körpüdən keçən gəzir;
Yan-yörəmdə dolanır,
Qanları içən gəzir.

Çəkildi, getdi dostlar,
Əkildi, getdi dostlar;
Çatmadı payızacan,
Töküldü, getdi dostlar.

Şamil, könlün yazdırmı?
Yazdımı, payızdımı?
Nəyin qəhrin çəkirsən,
Adın-sanın azdırmı?

Könüldən boş söz gəlməz,
Qərəzli daş söz gəlməz;
Dost səni sevmədisə,
Dilinə xoş söz gəlməz.

Gün ötdü, axşam oldu,
Baharım haşam oldu;
Zülmətin üzü yandı,
Ay doğdu, ağ şam oldu.

Ad var, addan irəli,
Dad var, daddan irəli;
Əhdə-peymana sadiq,
Dostlar yaddan irəli.

Qulunun xidməti var,
Baməzə söhbəti var;
Dostlarının yanında,
Nüfuzu, hörməti var.

Rafiq Əliyev təkdir,
Elmə təpər, dirəkdir;
Lütfizadə yolundan,
Düşüb-qalan lələkdir.

Rəşad Məcid astadır,
Siyasətdə ustadır;
Dayağı söz sənəti,
Güvənci də dostadır.

Ramiz Rövşən güllənir,
Duyğuları sellənir;
Səsi bülbül nəğməsi,
Burada Şamil dillənir.

Şair şamın haləsi,
Duyğu-duyğu naləsi;
Közərər bağrımızda,
Dərdli sözün laləsi.

Sən bizim cəngimizsən,
Hoy deyən həngimizsən;
Ramiz Rövşən deyir ki,
Sən bizim rəngimizsən.

Şamil, sözü ara, bil,
Mənaları dara, bil;
Ömürdə ayrılığı,
Ürəklərdə yara bil.

Şamil, könlün dağ olsun,
İstəklərin bağ olsun;
Yolumuza körpü sal,
Dilək-dilək tağ olsun.

Eşqin solmaz gülüsən,
Qol saxlayan külüsən;
Şamil, dostluq bağının,
Nəğməli bülbülüsən.

Kəlbəcərdə qan gülür,
Yağılar qan-qan gülür;
Şəhid-şəhid oğullar,
Gözlərində qan gülür.

Gözümün qorası var,
Dərdimin qarası var;
Şamil, səsin məlhəmdir,
Dağların yarası var.

İstək dağdır, biz aran,
Əyri tutan, düz qıran;
Əsdi payız küləyi,
Sovuldu gün-güzəran.

Gözlərdən tir çəkərik,
Görələr sirr çəkərik;
Yaxanı çəkməz Şamil,
Ağrını bir çəkərik.

Karvan dönəmdən keçir,
Könül künəmdən keçir;
Qarabağa gedən yol,
Mənim sinəmdən keçir.

Evimin yanı çinar,
Ruhumun xanı çinar;
Devran məni üyüdüb,
Səsimdən tanı çinar.

Gəyəni aynaq görüm,
İgidi caynaq görüm;
Köhlən yovşan içində,
Qulun oynaq görüm.

Tay gününü say dərdim,
Bu dövrandan pay dərdim;
Səni dünəndə qoydum,
Gəl ayrılaq, ay dərdim.

Yaddaş üyüt, tök gözünə,
Toxum elə, ək gözünə;
Əli Rzanın sözünü,
Tutuya bil, çək gözünə.

Dərd yaddaşda buz bağlar,
Ağrı versə, duz bağlar;
Xələflinin qələmi,
Kitab-kitab söz bağlar.

Araza qol uzanır,
Yaddaşa yol uzanır;
Təbrizə gedən yolda,
Qurtarmır, qal uzanır.

Arazüstü diridir,
Əkəridir, tiridir;
Səməd Behrəngi yolu,
Xudafərin diridir.

Qarabağ çənsiz gülər,
Dumansız, çənsiz gülər;
Yol açaq yurd üstünə,
Dirçələr, cansız gülər.

Könlümün qal damı yox,
Qonağı, adamı yox;
Həsrət elə acıdır,
Ha yesən, bal tamı yox.

Dan üzü dalğa-dalğa,
Bənizi dalğa-dalğa;
Gəyən yovşan ümmanı,
Dənizi dalğa-dalğa.

Səsi bəstəyə sarı,
Gülü dəstəyə sarı;
Xəyal elə quşdur ki,
Uçar istəyə sarı.

Canavar qaranlıqda,
Bayqular viranlıqda;
Tülkü, Çaqqal vurnuxar,
Sümsünər toranlıqda.

Xain gözdə tir görər,
Aqil eldə pir görər;
Eşqə düşən kimsələr,
Dünyanı sirr-sirr görər.

Tufan daşa neyləyər?
Dövran yaşa neyləyər?
Ağıl başda dayansa,
Tamah başa neyləyər?

Sözü gələ, pir yaza,
Sirr oxuya, sirr yaza;
Qış kəsdi yolumuzu,
Umud qaldı bir yaza.

Ağ quşa dən gətirdim,
Saydım dən-dən gətirdim;
Özgənin günahı yox,
Bu dərdi mən gətirdim.

Dərd dərdimin anası,
Solub rəngi, xınası;
Könlüm qurumuş göldü,
Uçub gedər sonası.

Dən tutmaz zəmi neylər?
Ümmansız gəmi neylər?
Könlüm daşqın acıdır,
Sevdası kəmi neylər?

El içində adım var,
İlhamdan qanadım var;
Bulaq üstə yarpızam,
İçsən suda daım var.

Yovşanı çöldə gör, gəl,
Sonanı göldə gör, gəl;
Bu qırılmış könlümü,
Qabaqca dildə gör gəl.

Könül verdim adına,
Düşdüm sənin oduna;
Sən məni necə verdin,
Bəs fələyin badına?

Halallıq tərin olsun,
Barın, bəhərin olsun;
Düşsən dərin quyuya,
Ümid kəndirin olsun.

Bəxtinə gün doğmasa,
Əməlində günah gör.

Söz yazdım göyçək-göyçək,
Mənası doğru-gerçək;
Ləçəkdi misraları,
Hər bayatı bir çiçək.

Sözüm sinədə sinər,
Ürəklərdə isinər;
Dil açıb danışanda,
Yuxulu baş diksinər.

Sözüm hasar, pərdə mən,
Ocaq da mən pir də mən;
Dövran yaman təkləyib,
Bir otaqdı, bir də mən.

Acılar məni üzdü,
Günümü sapa düzdü;
Əzəli yoxuşdusa,
Bu yolun sonu düzdü.

Əcəl güdər, qayıtmaz,
Güdər, hədər qayıtmaz;
Vəfasız dostlar kimi,
Gənclik gedər qayıtmaz.

Od yana, qova qalıb,
Bir şirin tova qalıb;
Quşu uçub könlümün,
Sinəmdə yuva qalıb.

Hər sözüm alıcı quş,
Caynağında fikir gör.

Alur qaya, dağdı, bil,
Alsu çiçək, bağdı, bil;
Kəlbəcərə can atan,
Acay dövran, çağdı, bil.

Dövran qanad olası,
Qorxmaz qurdun balası;
Ceyhun vətən səngəri,
Ruhu Turan qalası.

Yolumuz yoldan keçər,
Qurumuş çöldən keçər;
Bülbül Vətən istəsə,
Tikanlı koldan keçər.

Şairin söz eşqi var,
Aşiqin köz eşqi var;
Başımda qara baxma,
Hər yaşın öz eşqi var.

Başımda dərd bitəndir,
Hər qovğası ötəndir;
Hərənin öz yarı var,
Mənim yarım Vətəndir.

İstək bəhər gətirər,
Tamah bəla yetirər;
Dağ döşü çiçək, çəmən,
Dərə qamış bitirər.

# GƏL GEDƏK YURDA SARI

Yurdu gülşən, şən görüm,
Yağını şan-şan görüm;

Turanın bayrağında,
Dalğalı yovşan görüm.

Verdiyin sözü qoru,
Doğrunu, düzü qoru;
Atam Zal da deyərdi,
Çörəyi duzu qoru.

Ağıldan, huşdan keçdik,
Qanadlı quşdan keçdik;
Yığdıq gücü, qüvvəni,
Bir sərt yoxuşdan keçdik.

Ağıl başda cücərər,
Bitər yaşda cücərər;
Mayası sağlam olsa,
Toxum daşda cücərər.

Düzün yağırın gətir,
Axtar, axırın gətir;
Şit söz könül əyləməz,
Sözün ağırın gətir.

Sınaqdan keçsən gözəl,
Vaxtında köçsən gözəl;
Bulanıq suyu saxla,
Duruldub içsən gözəl.

Bir gün pərə dağılar,
Qaçar hərə, dağılar;
Əlində nar oynatma,
Düşər yerə, dağılar.

Bəla köyü parçalar,
Nifaq öyü parçalar;
Buludlar toqquşanda,
Şimşək göyü parçalar.

Hər dilin dastanı var,
Hər tağın bostanı var;
Hər sevginin könüldə,
Xanı var, soltanı var.

Yalan yalıncı kəsər,
Fürsət qalıncı kəsər;
Qılınc daşı parçalar,
Tamah qılıncı kəsər.

Hər ümiddə sabah gör,
İmanında Allah gör;

Açılar dan, gülər dan,
Damarda tərpənər qan;
Yatmış bəxtim oyanar,
Durar, çıxar qınından.

Təzə divar him olsun,
Mizrab olsun, sim olsun;
Nəsildə böyük mənəm,
Bəs ölənim kim olsun?

Şairin düz sözü var,
Görməyə yüz gözü var;
Hərənin öz ocağı,
Hərənin öz közü var.

Bulaqda süsən açar,
Yaxasın əsən açar;
Könlüm kimsəsiz evdir,
Qayıdar küsən açar.

Əzələm, əsiləm mən,
Payızlıq xəsiləm mən;
Son eşqim Xələflidir,
Min yerdən kəsilən mən.

Qəm məndə düzüm-düzüm,
Salxımdır üzüm-üzüm;
Sözümün sonu bitməz,
Süzülsə süzüm-süzüm.

İnsan var, dərdi yüzdür,
Bu selə necə dözdü;
Olum-ölüm bir paltar,
Baxsan astardır, üzdür.

Ayrılıq qəfəsimdir,
Yurd yeri həvəsimdir;
Sinəm Gəyən çölüdür,
Yelləri nəfəsimdir.

Diri mənim yerimdi,
Qurbanimdir, pərimdir;
Xələf dağı dayağım,
Gordubaba pirimdir.

Şəhidim, yaralım var,
Neçə qəlbi qaralım var;
Oddan, alovdan keçən,
Amurum, Aralım var.

Könlüm nələr çəkir, gör,
Toxum salır, əkir gör;

Yığın-yığın arzular,
Hərədə bir arzu var;
Mömin Məkkə həvəsli,
Qaçqın Vətən arzular.

Gözlərim şeh gətirər,
Nəfəsim meh gətirər;
Canımı əvəz alan,
Həsrətim beh gətirər.

Dirim dağım, qəlbimdir,
Başda ağım qəlbimdir;
Dünyanın yarısı sən,
Yarısı da qəlbimdir.

Dili səmə qaytarım,
Zili bəmə qaytarım;
Diri, mənim qəlbimsən,
Gəl, sinəmə qaytarım.

Dağlar tülə bürünür,
Əsən yelə bürünür;
Xəyal yurdu gəzdikcə,
Söz-söz gülə bürünür.

Hər yolun ahəngi var,
Savaşı var, cəngi var;
Ürəyimdən su içən,
Sözümün qan rəngi var.

Yol yeri, çiçək əzmə,
İnam ver, ümid üzmə;
Yurd yerini qapı bil,
Açmağa qapı gəzmə.

Dərdi sərdim, topladım,
Sinə gərdim, topladım;
Gəzdim yurd yerlərini,
Sözü dərdim, topladım.

Söz şairə yazıdır,
Qarabağdır, Yazıdır;
Gəyənin gülən üzü,
Xələflinin yazıdır.

Əli Rza Xələflin var,
Xələflin, sələflin var;
Adına söykək duran,
Bir şair Xələflin var.

*02.12.2021*